# MODERN PEDAGOGICAL TECHNOLOGIES USED IN EDUCATION AND EDUCATION OF CHILDREN IN PRESCHOOL EDUCATIONAL INSTITUTIONS

**Khalida Hamidova**

Azerbaijan State Pedagogical University,
PhD in pedagogy
E-mail: xalida.hamidova@adpu.edu.az
https://orcid.org/0000-0001-6873-2353

**Abstract**. The article reviews modern effective pedagogical technologies used in the activities of preschool educational institutions. This justifies the relevance of using modern innovative technologies in the activity of preschool educational institutions. The most current, modern innovative technologies used in the activities of preschool educational institutions are mentioned. The meaning of the terms «innovative technology» and «pedagogical technology» is explained. The essence of these technologies and the goals of their application are explained, and a conclusion is made about the necessity of effective use of these technologies in preschool educational institutions. The types, forms, methods, and classifications of technologies used by educators-teachers in preschool institutions are discussed.

**Keywords**: preschool educational institutions, educator-teacher, modern pedagogical technologies, innovative technologies, total digitization, single digital culture.

**DOI:** 10.30546/2709-2488.2.2023.29
**To cite this article:** Hamidova Kh. (2023). Modern pedagogical technologies used in education and education of children in preschool educational institutions. *Journal of Preschool and Primary Education*, Vol. 243, Issue II, pp. 29-39.
**Article history:** received – 17.04.2023; accepted – 12.05.2023.

# MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ UŞAQLARIN TƏLİM-TƏRBİYƏSİNDƏ İSTİFADƏ OLUNAN MÜASİR PEDAQOJİ TEXNOLOGİYALAR

**Xalidə Həmidova**

Azərbaycan Dövlət Pedaqoji Universiteti,
pedaqogika üzrə fəlsəfə doktoru
E-mail: xalida.hamidova@adpu.edu.az
https://orcid.org/0000-0001-6873-2353

**Annotasiya.** Məqalədə məktəbəqədər təhsil müəssisələrinin fəaliyyətində istifadə olunan müasir səmərəli pedaqoji texnologiyalar nəzərdən keçirilir. Bu, məktəbəqədər təhsil müəssisələrinin fəaliyyətində müasir innovativ texnologiyalardan istifadənin aktuallığını əsaslandırır. Tədqiqat işində məktəbəqədər təhsil müəssisələrinin fəaliyyətində istifadə olunan ən aktual, müasir innovativ texnologiyalar qeyd olunur, "innovativ texnologiya", "pedaqoji texnologiya" anlayışlarının mənası izah edilir. Bu texnologiyaların mahiyyəti və onların tətbiqinin məqsədləri açıqlanır, məktəbəqədər təhsil müəssisələrində bu texnologiyalardan səmərəli istifadənin zəruriliyi barədə nəticə çıxarılır. Məktəbəqədər müəssisələrdə tərbiyəçi-müəllimlərin istifadə etdikləri texnologiyaların növləri, formaları, metodları, təsnifatları haqqında danışılır.

**Açar sözlər:** məktəbəqədər təhsil müəssisələri, tərbiyəçi-müəllim, müasir pedaqoji texnologiyalar, innovativ texnologiyalar, total rəqəmsallaşma, vahid rəqəmsal mədəniyyət.

**DOI:** 10.30546/2709-2488.2.2023.29
**Məqaləyə istinad:** Həmidova X. (2023). Məktəbəqədər təhsil müəssisələrində uşaqların təlim-tərbiyəsində istifadə olunan müasir pedaqoji texnologiyalar. *«Məktəbəqədər və ibtidai təhsil»*, № 2 (243), səh. 29-39.
**Məqalə tarixçəsi:** göndərilib –17.04 2023; qəbul edilib – 12.05.2023.

## Giriş / Introduction

XXI əsr, haqlı olaraq, insan fəaliyyətinin müxtəlif sahələrinə fəal şəkildə daxil olan innovativ texnologiyaların çiçəklənməsi əsri hesab edilə bilər və onlar arasında təhsil ən vacib amillərdən biridir.

İnnovativ texnologiyalar sosial proseslərin işləməsi üçün əsaslardan biri olmaqla yanaşı, onlar arasında qarşılıqlı əlaqələrin şərti kimi çıxış edir. İnformasiya məkanı qlobal şəbəkə vasitəsi ilə insanın imkanlarını genişləndirir, coğrafi və siyasi sərhədləri aşmağa, dünya mədəni dəyərlərini hər kəs üçün əlçatan etməyə, insan həyatının sferalarını “vizuallaşdırmağa” imkan verir. İnformasiya axınlarının paylanması sürəti fərdlərin sosial həyat proseslərinin total rəqəmsallaşması və təhsil səviyyəsinin artması vəziyyətinə gətirib çıxarır.

Hazırda məktəbəqədər təhsil müəssisələrinin pedaqoji kollektivləri öz işlərində innovativ texnologiyaları intensiv şəkildə tətbiq edirlər. Buna görə də, məktəbəqədər təhsil müəssisələrində tərbiyəçi-müəllimlərin əsas vəzifəsi uşaqlarla işin təşkili üsullarını və formalarını, şəxsiyyətyönümlü inkişafa uyğun innovativ pedaqoji texnologiyalar seçməkdir.

Məktəbəqədər təhsildə müasir pedaqoji texnologiyalar məktəbəqədər təhsilin dövlət standartlarının həyata keçirilməsinə yönəlmişdir.

Pedaqoji texnologiyada prinsipial mühüm aspekt uşağın tərbiyə və təhsil prosesindəki mövqeyi, böyüklərin uşağa münasibətidir. Yetkin yaşlılar uşaqlarla ünsiyyət qurarkən «Onun yanında deyil, ondan üstün deyil, onunla birlikdə!» qaydasına əməl etməlidirlər. Məqsəd uşağın şəxsiyyət kimi formalaşmasına töhfə verməkdir.

## Əsas hissə / Main part

Mədəni paradiqmaların dəyişməsi real vaxt şəraitində, göz önündə baş verir. Müasir vahid rəqəmsal mədəniyyəti müəyyən edən əsas hadisələrə fərdi kompüter və müxtəlif rəqəmsal qurğular daxildir:

– internet;
– süni intellekt;
– sistem və tətbiqi proqram təminatı;
– kompüter qrafikası və virtual reallıq sistemləri;
– ənənəvi kommunikasiya vasitələrinin rəqəmsal formatları (kitablar, fotoşəkillər, audio və video yazılar, elektron lövhələr və s.);
– kompüter oyunları;
– texnoloji yaradıcılıq (art).

Bu gün Azərbaycan təhsil sistemi islahatlar yolu ilə öz işini davam etdirir:

təhsilin standartları dəyişir, yeni texnologiyalar tətbiq edilir, təhsil səviyyələrində islahatlar aparılır və s.

İslahat və innovasiyaların tərəfdarları sırasına novatorlar, innovativ pedaqoqlar, zamanla ayaqlaşmağa can atan, təhsilin inkişafında yeni meyilləri, onun ən son texnologiyalarını reallaşdıran, təkmilləşdirmə ideyalarını irəli sürən və həyata keçirən insanlar qoşuldular. Bu insanlar həm də həvəs və fəallıqları ilə başqalarına sirayət etməyə, onlara yol göstərərək, fasilitasiya etməyə çalışırdılar. Eyni zamanda, professor-müəllim heyətinin xeyli hissəsi yeniliyin açıq və ya gizli əleyhdarları sırasına qoşuldu və bu, geniş vüsət aldı. Tətbiq olunan yeniliklərin məqsəd və mahiyyəti, eləcə də onların müsbət təsiri, həyata keçirilməsi perspektivləri həmişə eyni cür başa düşülmür. Ənənəvi formaların onilliklərlə davam etdiyi şəraitdə fəaliyyət tərbiyəçi-müəllimlərdə yorğunluq və inamsızlıq yaradır, lakin yeniliyə müqavimətin başqa tərəfləri də var. Boloniya prosesi və ali təhsil müəssisələrində gedən islahatlar “qayığı”sarsıtdı.

“Qayıq” əvvəl sakitcə üzürdü. Yeniliklər uzun illər mövcud olan nümunəvi sabitliyi bir çox cəhətdən pozdu. “A” nöqtəsindən “B” nöqtəsinə qədər və geriyə üzən, bəzən isə bir çox onilliklərə eyni formada xidmət edən vasitələr istiqamətini dəyişməli oldu. Bunun fonunda sabitlik və durğunluq arasındakı sərhədin çoxdan aradan qalxdığı və birindən digərinə keçid diqqətdən kənarda qaldı. Tədqiqatçıların qeyd etdiyi kimi, yeniliyə qarşı müqavimətin təzahürü “yenilikdən imtina, yenilikdən qorxma, yeniliyə açıq və ya üstüörtülü skeptisizm və yoldan çıxmaq istəməmək” [Taylor M.L., 2006] kimi müəyyən edilə bilər.

Rəqəmsallaşmanın nəticələrini, birmənalı olaraq, müsbət və ya mənfi qiymətləndirmək mümkün deyil. Onlar “gələcək nəsil” kimi tərbiyə olunanlara ən yaxın təhsil sistemi üçün aktual olanı, fikrimizcə, ənənəvi dəyərlərin qorunması və beynəlxalq tərcrübə ilə bağlı vəzifələri çox aydın şəkildə müəyyən edir. Özlüyündə rəqəmsal texnologiyalar, rəqəmsallaşma, mədəni irsin kütləvi şəkildə rəqəmsal formada ötürülməsi birbaşa rəqəmsal mədəniyyətə, fərdi komponentlərə, ənənəvi mənada mədəniyyətə gətirib çıxarmır – bu zaman mədəniyyət həm formalaşa, həm də formalaşmaya bilər.

Bildiyimiz kimi, rəqəmsallaşma müəssisələrin və bütövlükdə ölkənin rəqabət qabiliyyətini artırmaq, eləcə də insanların həyat keyfiyyətini yaxşılaşdırmaq üçün lazımdır. Bundan əlavə, rəqəmsallaşma yüksək səviyyədə ixtisaslaşmış kadrların hazırlanmasında və təhsil siyasətinin yerinə yetirilməsində vacib yer tutur. Elmi-tədqiqat institutları, məktəbəqədər təhsil müəssisələri, ali təhsil müəssisələri bazasında və innovativ klasterlər çərçivəsində kompetensiya mərkəzlərinin inkişafı da vacib şərtlərdəndir. Bu baxımdan hazırda məktəbəqədər təhsil müəssisələrinin pedaqoji kollektivlərinin fəaliyyətində innovativ texnologiyaların tətbiqinə intensiv şəkildə nəzarət edilir. Buna görə də, məktəbəqədər təhsil müəssisələrinin

tərbiyəçi-müəllimlərinin əsas vəzifəsi uşaqlarla işin təşkilinin üsul və formalarını, onların fərdi inkişafına yönəlmiş məqsədə optimal şəkildə uyğun gələn innovativ pedaqoji texnologiyaları seçməkdir.

Şübhəsiz ki, cəmiyyətin müasir inkişaf mərhələsində innovativ proseslər uşağın potensial qabiliyyətlərinin üzə çıxarılmasının ilkin mərhələsi kimi, ilk növbədə, məktəbəqədər təhsil sisteminə təsir göstərir. Məktəbəqədər təhsilin inkişafı, yeni keyfiyyət səviyyəsinə keçid innovativ texnologiyaların inkişafı olmadan həyata keçirilə bilməz.

Yeniliklər pedaqoji təcrübədə istifadə olunan, uşağın şəxsiyyətinə, onun qabiliyyətlərinin inkişafına yönəlmiş yeni metodları, formaları, vasitələri, texnologiyaları müəyyənləşdirir. Bununla belə, müasir pedaqoji texnologiyalar məktəbəqədər təhsilin dövlət standartlarının həyata keçirilməsinə yönəlmişdir. "Buna görə də, məktəbəqədər təhsil müəssisələrinin tərbiyəçi-müəllimlərinin əsas vəzifəsi uşaqlarla işin təşkili üsullarını və formalarını, fərdi inkişafın müəyyən edilmiş məqsədinə optimal şəkildə uyğun gələn innovativ pedaqoji texnologiyaları düzgün seçməkdir" [Svetlana Qin., 2020].

Pedaqoji texnologiyalarda ən mühüm cəhət uşağın təhsil prosesində tutduğu mövqe, böyüklər tərəfindən uşağa münasibətin tənzimlənməsidir.

Bəs "texnologiya" termininin özü nə deməkdir? "Texnologiya – hər hansı bir məsələdə, bacarıqda, sənətdə istifadə olunan texnikalar toplusudur" [Klarin M.V., 1984 ].

Pedaqoji texnologiya pedaqoji məqsədlərə nail olmaq üçün istifadə olunan bütün fərdi, interaktiv və metodik vasitələrin sistemli məcmusu və işləmə qaydasıdır [Podlasiy İ.P., 2003].

Pedaqoji texnologiya – psixoloji-pedaqoji münasibətlərin, formaların, metodların, təlim metodlarının, tərbiyə vasitələrinin məcmusu, pedaqoji proses üçün bir vasitədir [Selevko G.K., 1998].

G.K.Selevkoya görə, hər hansı bir pedaqoji texnologiya əsas metodoloji tələblərə cavab verməlidir:

1. Konseptuallıq – müəyyən elmi konsepsiyaya, o cümlədən, təhsil məqsədlərinə nail olmaq üçün fəlsəfi, psixoloji, didaktik və sosial-pedaqoji əsaslandırmaya istinadı nəzərdə tutur.

2. Sistemlilik – sistemin bütün əlamətlərinin mövcudluğudur. Burada prosesin məntiqiliyi, onun bütün hissələrinin qarşılıqlı əlaqəsi, bütövlüyü müəyyən edilir.

2. İdarəetmə qabiliyyəti, nəticələrin korreksiyası məqsədi ilə qarşıya məqsəd qoyma, planlaşdırma, təlim prosesinin layihələşdirilməsi, mərhələli diaqnostika, vasitə və üsulların variativliyi düzgün diaqnoz qoymağa imkan verir.

3. Səmərəlilik məsrəflər baxımından optimallığı, təlimin müəyyən standartla-

rına nail olmağın təminatını özündə ehtiva edir.

4. Reproduktivlik pedaqoji texnologiyanın digər oxşar təhsil müəssisələrində, başqa məşğələlərdə istifadə (təkrar, təkrar istehsal) imkanlarını nəzərdə tutur [Selevko G.K., 1998].

Pedaqoji texnologiyaların mahiyyətinin müxtəlif tərifləri və təsvirlərinin təhlili aşağıdakı əsas təsviri qəbul etməyə imkan verir: pedaqoji texnologiya konkret pedaqoji sistemin nəzəri tərtibatından təhsil prosesində tətbiqinə qədər, onların məqsədlərini əks etdirən, elmi şəkildə əsaslandırılmış layihəsidir. Bu layihə pedaqoji texnologiyaların məzmunu, formaları, metodları, vasitələri, nəticələri və təşkili şəraitini özündə əks etdirir. Pedaqoji texnologiyaları, əsas meyarlarına görə, müxtəlif cür təsnif etmək olar:

• sağlam təhsil texnologiyaları;
• layihə əsaslı texnologiyalar;
• tədqiqat əsaslı texnologiyalar;
• informasiya və kommunikasiya texnologiyaları;
• uşağın və tərbiyəçi-müəllimin portfolio texnologiyaları;
• TRİZ texnologiyası;
• fənn texnologiyaları (inkişafetdirici mühit üçün).

Sağlam təhsil texnologiyalarının tətbiqində məqsəd uşağa sağlamlığını qorumaq, sağlam həyat tərzi üçün zəruri olan bilik, bacarıq və vərdişləri formalaşdırmaq imkanı verməkdir.

Müasir şəraitdə insanın inkişafı onun sağlamlığının formalaşması sistemini qurmadan mümkün deyil. Sağlamlaşdırıcı pedaqoji texnologiyaların seçimi aşağıdakılardan asılıdır:

1) məktəbəqədər təhsil müəssisəsinin növü;
2) uşaqların orada qalma müddəti;
3) müəllimlərin işlədiyi proqram;
4) nizamnamənin xüsusi şərtləri;
5) müəllimin peşəkar səriştəliliyi;
6) uşaqların sağlamlıq göstəriciləri.

Sağlamlığa xidmət edən bütün texnologiyaları 3 qrupa bölmək olar:

• sağlamlığın qorunması və stimullaşdırılması texnologiyaları;
• sağlam həyat tərzinin öyrədilməsi texnologiyaları;
• korreksiyaedici texnologiyalar.

Uşağın sağlamlığının keşiyində duran, sağlamlıq mədəniyyətini tərbiyə edən tərbiyəçi-müəllim özü də sağlam olmalı, valeoloji (sağlam) biliklərə malik olmalı, həddindən artıq yüklənməməli, peşə fəaliyyəti ilə bağlı müsbət və mənfi cəhətləri obyektiv qiymətləndirə bilməli, uşağın və valideynlərin maarifləndirilməsi üçün zəruri özünüinkişaf planını tərtib etməli və onun həyata keçirilməsinə

nail olmalıdır.

Layihə əsaslı texnologiyaların istifadəsində məqsəd uşaqları şəxsiyyətlərarası qarşılıqlı əlaqə sferasına daxil etməklə onların sosial-şəxsi təcrübəsinin inkişafı və zənginləşdirilməsidir.

Məktəbəqədər yaşlı uşaqların təlim-tərbiyəsində layihə texnologiyasından fəal istifadə edən tərbi yəçi-müəllimlər yekdilliklə qeyd edirlər ki, bağçada təşkil olunan gün rejiminə uyğun layihələr onları daha yaxından tanımağa, uşağın daxili aləminə nüfuz etməyə imkan verir. Bundan əlavə, buraya təlim layihələrinin təsnifatı da daxildir:

• oyun fəaliyyəti;
• ekskursiyalar;
• bədii fəaliyyət;
• konstruktiv fəaliyyət.

Tədqiqat əsaslı texnologiyaların məktəbəqədər müəssisələrdə tətbiqində məqsəd məktəbəqədər yaşlı uşaqların əsas səriştələrini, düşüncə tərzini müəyyən etmə bacarığını formalaşdırmaqdır.

İdrak-tədqiqat fəaliyyətinin məzmununa aşağıdakılar daxildir: təcrübələr (təcrübə), onların toplanıb qruplaşdırılması (təsnifat işi), informasiya və kommunikasiya texnologiyaları.

Uşağın yaşadığı, inkişaf etdiyi müasir dövr onun valideynlərinin böyüdüyü dövrdən əsaslı şəkildə fərqlənir və davamlı təhsilin ilk halqası olan məktəbəqədər təhsilə keyfiyyətcə yeni tələblər irəli sürür. Müasir informasiya texnologiyalarından (kompüter, interaktiv lövhə, planşet və s.) geniş istifadə edildiyi hazırki dövrdə məktəbəqədər təhsil müəssisələrində kompüter texnologiyalarından istifadə, onlara verilən müəyyən tələblər əsasında həyata keçirilir.

Kompüter texnologiyalarının üstünlükləri aşağıdakılardan ibarətdir:

• informasiyanın kompüterin ekranında, oyun, şəkil formasında təqdim edilməsi;
• özündə məktəbəqədər yaşlı uşaqlar üçün başa düşülən obrazlı məlumatları daşıması ;
• hərəkət, səs və animasiyanın uşağın diqqətini uzun müddət cəlb edərək yadında qalması;
• uşaqların idrak fəaliyyəti üçün stimul yaratması;
• təlimin fərdiləşdirilməsinə imkan yaratması;
• kompüterdə fəaliyyəti zamanı məktəbəqədər yaşlı uşaqda özünəinam yaranması;
• gündəlik həyatda görünməyən həyat vəziyyətlərini simulyasiya etməyə imkan yaranması.

Uşağın və tərbiyəçi-müəllimin portfolio texnologiyası. Portfolio, uşağın və

tərbiyəçi-müəllimin müxtəlif fəaliyyətlərdəki şəxsi nailiyyətlərinin, uğurlarının, müsbət emosiyalarının, həyatının xoş anlarını bir daha yaşamaq fürsətinin toplusudur. Bu, uşağın özünəməxsus inkişafıdır.

Portfolionun yaradılması prosesi də, bir növ pedaqoji texnologiyadır. Bir çox portfolio variantları var. Bölmələrin məzmunu məktəbəqədər yaşlı uşağın imkanlarına və nailiyyətlərinə uyğun olaraq, tədricən doldurulur. Müasir təhsil texnologiyalarının tətbiqi zamanı bir çox bacarıqlara malik tərbiyəçi-müəllimlərə ehtiyac yarandığı aşkarlanır:

• yaradıcı düşüncəsi olan;
• müasir təhsil texnologiyalarından istifadə bacarıqlarına malik olan;
• psixoloji və pedaqoji diaqnostika üsullarını bilən;
• konkret praktik fəaliyyət şəraitində pedaqoji prosesin qurulması yollarını bilən;
• son nəticəni proqnozlaşdırmaq bacarığı olan.

Portfolio tərbiyəçi-müəllimin müxtəlif fəaliyyətlərdə (təhsil, akademik, yaradıcı, sosial, kommunikativ və s.) əldə etdiyi nəticələri nəzərə almağa imkan verir. Bu, peşəkarlığın və işin səmərəliliyinin qiymətləndirilməsinin alternativ formasıdır.

TRİZ (ixtira məsələlərinin həlli nəzəriyyəsi) texnologiyası alim-ixtiraçı T.S. Altşuller tərəfindən işlənib hazırlanmışdır. TRİZ-də tərbiyəçi-müəllimlərin qarşıya qoyduğu əsas məqsəd budur: – uşaqların yaradıcı təfəkkürünün formalaşdırılması, yəni müxtəlif fəaliyyət sahələrində qeyri-standart vəzifələrin sabit həllinə hazır olan yaradıcı şəxsiyyət yetişdirmək [Altşuller G., 2012].

TRİZ metodunu "yaradıcı şəxsiyyət məktəbi" də adlandırmaq olar, çünki onun şüarı "hər şeydə yaradıcılıq"dır: sualın tərtib olunmasında, onun həlli üsullarında, materialın təqdimatında və s. Çox vaxt tərbiyəçi-müəllim artıq TRİZ tədqiqatları aparmağa başlamış olur, lakin bundan xəbəri olmur.

Məktəbəqədər yaşda TRİZ texnologiyalarından istifadənin əsas məqsədi uşağa yaradıcılıq bacarıqlarının, kəşfetmənin sevincini aşılamaqdır.

Uşaqlarla işləmək üçün təqdim olunan materialların əsas meyarı aydınlıq və sadəlikdir. Ən sadə nümunələr üzrə əsas müddəalar uşaqlar tərəfindən başa düşülmədən TRİZ-in tətbiqini sürətləndirmək lazım deyil. Nağıllar, stolüstü oyunlar, gündəlik situasiyalar – uşağın TRİZ həllərini, üzləşdiyi problemləri tətbiq etməyi öyrəndiyi mühitdir. Ziddiyyətlər aşkar edildikdə, uşaq özü də çoxsaylı resurslardan istifadə edərək, ideal nəticəyə can atacaq [Podlasiy İ.P., 2003].

Məzmunun (fənlər üzrə) yaradılması texnologiyaları – inkişafetdirici mühit. Uşağın yerləşdiyi mühit, əsasən, onun inkişaf tempini və xarakterini müəyyən edir. Buna görə də bir çox pedaqoq və psixoloqlar tərəfindən şəxsiyyətin inkişaf amili kimi qəbul edilir. Ətraf mühit tərbiyəvi, inkişafetdirici, maarifləndirici,

stimullaşdırıcı, təşkilati, kommunikativ funksiyaları yerinə yetirməlidir, lakin ən əsası o, uşağın müstəqilliyinin və özfəaliyyətinin inkişafı üçün çalışmalıdır.

Rəqəmsal mühitə daxil olmaq dövrümüz üçün qaçılmaz reallıqdır. Bu, fərdin öz peşə maraqları və meyilləri barədə məlumatlı olmasından çox əvvəl baş verir.

Problemlərin psixoloji tərəfini də nəzərdən qaçırmamaq vacibdir: çətinliklər yarandıqda, yeniliyin həyata keçirilməsinin hər bir mərhələsində yarana biləcək və yeniliklərin həyata keçirilməsindən imtinaya səbəb ola biləcək psixoloji maneələr qarşıya çıxa bilər. Ona görə də bu yola girərkən icra prosesinin peşəkar dəstəklənməsi məsələsini nəzərdən keçirmək vacibdir.

Beləliklə, innovasiyaların tətbiqi təhsil prosesinin iştirakçılarında müəyyən bacarıqların formalaşdırılmasını tələb edir. Elektron tədris kursunun inkişafı, onun təhsil məzmunu tərbiyəçi-müəllimin formalaşmış "rəqəmsal səriştəliliyini" nəzərdə tutur. Məktəbəqədər yaşlı uşaq – məzmun qarşılıqlı əlaqəsinin hər bir elementi yalnız aydın şəkildə qurulmamalı, həm də texnoloji cəhətdən təkmilləşmiş olmalıdır. Bütün bunlar əhəmiyyətli "tənzimləmə", tərbiyəçi-müəllimin davamlı təhsil və özünütəhsilinə, yeni texnoloji proqramların işlənib hazırlanmasına və tətbiqinə istiqamətlənmə tələb edir. Belə ki, innovativ yanaşmalar zamanı və ya məşğələdə müxtəlif texnologiyalar istifadə edildikdə, məktəbəqədər yaşlı uşaqlarda məkan və zaman daxilində tədqiqat və ya layihə, əməkdaşlıq mədəniyyəti inkişaf edir. Məktəbəqədər təhsil müəssisələrində pedaqoji proses zamanı tətbiq etdiyimiz istənilən layihə və ya tədqiqat işi birgə fəaliyyətin nəticəsidir. Bu nəticələr təhsilin müxtəlif icmalarında özünü göstərir.

Texnoloji yanaşma, yəni yeni pedaqoji texnologiyalar məktəbəqədər yaşlı uşağın nailiyyətlərinə zəmanət verir və onların uğurlu təhsilini daha da təkmilləşdirir.

## Nəticə / Conclusion

Şübhəsiz ki, məktəbəqədər müəssisələrdə təhsil texnologiyalarının tətbiqinə xüsusi ehtiyac təhsil məkanının modernləşdirilməsi və texnolojiləşdirilməsi, eyni zamanda, sosial-iqtisadi şəraitdə, dövlət təhsil standartlarının tətbiqi ilə yaranır. Hər halda, bu gün bir sosial hadisə kimi təhsil fəaliyyətinin əsas məqsədi "texnoloji" sahədən – müasir elmi baxışlara uyğun gələn peşəkar pedaqoji fəaliyyət sahəsindən kənarda əldə edilə bilməz.

Qarşılıqlı mübadilə ilə məşğul olsa belə, hər bir pedaqoq yeni texnologiyanın yaradıcısıdır. Yaradıcılıq olmadan yeni texnologiyanın yaradılması mümkün deyil. Texnoloji səviyyədə işləməyi öyrənmiş müəllim üçün əsas təlimat həmişə inkişaf etməkdə olan idrak prosesi olacaqdır.

Məktəbəqədər müəssisələrin təcrübəsində getdikcə daha çox müasir informa-

siya texnologiyalarından istifadə olunur: cizgi filmləri, uşaq tədris – kompüter oyunları, multimedia təqdimatları və s. Virtual təhsil məkanını genişləndirməklə uşaqların sosial-mədəni təcrübəsini zənginləşdirmək üçün onlardan istifadə etməyin üstünlüklərini də unutmaq olmaz. Burada uşaq, ənənəvi olaraq, müxtəlif duyğu təcrübələri toplamağın əhəmiyyəti haqqında biliklər qazanır.

Beləliklə, məktəbəqədər təhsilin müasir texnologiyaları onun inkişafında keyfiyyətcə yeni mərhələni qeyd edir. Tətbiq və daha çox pedaqoji texnologiyaların müstəqil inkişafı tamamilə fərqli bir peşəkarlıq səviyyəsini tələb edir – peşəkar səriştə, onun əsas komponenti bu tip texnologiyanın əsas orijinallığının dərk edilməsidir.

**Məqalənin aktuallığı.** Məktəbəqədər təhsil müəssisələrində uşaqların təlim və tərbiyəsində müasir pedaqoji texnologiyalardan istifadə dövrün aktual problemlərindən biridir. Qeyd olunur ki, məktəbəqədər müəssisələrin təcrübəsində getdikcə daha çox müasir informasiya texnologiyalarından (cizgi filmləri, uşaq tədris – kompüter oyunları, multimedia təqdimatları və s.) istifadə olunur. Məqalədə bu aktual problem tədqiq olunur.

**Məqalənin elmi yeniliyi.** Məqalədə alim-ixtiraçı T.S. Altşullerin TRİZ (ixtira məsələlərinin həlli nəzəriyyəsi) texnologiyası təhlil olunur. Qeyd olunur ki, nağıllar, stolüstü oyunlar və s. uşağın TRİZ həllərini, üzləşdiyi problemləri tətbiq etməyi öyrəndiyi mühitdir. TRİZ texnologiyalarından istifadənin əsas məqsədi uşağa yaradıcılıq bacarıqlarını, kəşfetmə sevincini aşılamaqdır. Ziddiyyətlər aşkar edildikdə, uşaq çoxsaylı resurslardan istifadə edərək, ideal nəticəyə can atır.

**Məqalənin praktik əhəmiyyəti.** Məqalədə məktəbəqədər yaşlı uşaqlarla işlərin necə aparılması ilə bağlı valideynlərə, tərbiyəçi-müəllimlərə tövsiyələr, məsləhətlər verilir. Belə tövsiyə və məsləhətlər məqalənin praktik əhəmiyyətini artırır. Məqalədən valideynlər, tərbiyəçi-müəllimlər, bu sahədə təhsil alan tələbələr, magistrlar və tədqiqatçılar faydalana bilərlər.

## İstifadə olunmuş ədəbiyyat / References


1. Məktəbəqədər təhsil proqramı (kurikulumu). (2022). Bakı, https://edu.gov.az/az/mektebeqeder-tehsildoc/mektebeqeder-tehsil-proqrami-kurikulumnin-tesdiqi-barede-azerbaycan-respublikasi-tehsil-nazirinin-emri.
2. Həmidova X.A. (2022). Sağlamlıq və təhsil prosesinin inkişafına verilən tələblər. ARTİ , “Elmi əsərlər”, cild 89, № 4, s. 10–15, Bakı.
3. Altshuller G. (2012). Nayti ideyu: Vvdeniye: v TRİZ – teoriyu resheniya izobretatelskikh zadach / Genrikh Altshuller. – 5-oye izd. – Moskva: «Alpina Pablisher».
4. Klarin M.V. (1984). Pedagogicheskaya tekhnologiya obucheniya. Moskva: izdatelskiy tsentr «Akademiya».
5. Podlasiy İ.P. (2003). Gde pomogut tekhnologii. Moskva: «Sovetskaya pedagogika».
6. Selevko G.K. (1998). Sovremenniye obrazovatelniye tekhnologii. Moskva: «Narodnoye obrazovaniye».
7. Svetlana Gin. (2020). Triz-pedagogika dlya malishey. Konspekti zanyatiy dlya vospitateley i roditeley. Moskva: izd. «Galaktika», 140 s.
8. Taylor M.L. (2009). Generation next: a student in a postmodern era. Journal «Otechestvenniye zapiski», 256 p. Retrieved from http://jarki.ru/wp-ress / 2009/01/26/413/.